Ədalət.-2019.-2 mart.-S.10.

SƏRGİ SALONLARIMIZDA

# LEYLANIN GÖZƏLLİK DÜNYASI

**Vəcihə Səmədova adına sərgi salonunda nümayiş olunan bu sərgi çoxsaylı tamaşaçıların diqqət və marağını xeyli müddət üzərində toplaya bildi. Açılışa gələnlər rəssam Leyla Mirzəzadəni - öz əlliillik yubileyini bu sərgi il ə qeyd eləyən istedadlı rəssamı salamlayır, gül dəstələri ilə təbrik edirdilər. Rəssama bağışlanan gül dəstələri onun çəkdiyi divarlarda zərli çərçivələrlə haşiyələnmiş gül-çiçək rəsmləri ilə sanki bir allistrasiya uyarlığı, bənzəyişi sərgiləyirdi. Günəş işığına bələnmiş palitranın pealistik bir üslubla qovuşuğu işıqlı, gözəgəlimli, son dərəcə aydın bir mənzərənin rənglərin dil açıb danışan, isti, ilıq çalarları ilə ifadəsi rəssam peşəkarlığından xəbər verir, onun rənkarlıq sənətinin sirlərinə bələdliyini, incə, həssas duyumunu, istənilən mövzuya öz baxış bucağının olmasını, bir sözlə özəl istedadını təsdiqləyirdi. Bu da təsadüfi deyil. Leyla xanım hələ uşaq**





**vaxtlarından ana babası, əvəzsiz portret ustası, Azərbaycanın xalq rəssamı Böyükağa Mirzəzadədən rəngkarlığın sirlərini öyrənməyə başlamışdı. Öz doğma, mehriban babası onun son dərəcə tələbkar müəllíminə çevrilmişdi. Leyla xanım qədirbilənliklə öz sənət müəllimínin - babasının ömür yoluna işıq salmış, sənət örnəklərini ardıcıl şəkildə, elmi dəlillərlə tədqiq etmiş "Böyükağa Mirzəzadənin yaradıcılığı" adlı albom formatlı tədqiqat kitabını araya-ərsəyə gətirmişdir. Elə bu kitabla da o, dissertasiya müdafiə edərək anası Ofeliya Mirzəzadə kimi sənətşünaslıq üzrə fəlsəfə doktoru elmi adına nail olmuşdur. Onu da deyim ki, Leyla xanımın bu kitabı da 2012-ci ildə Azərbaycan Rəssamlar İttifaqının V.Səmədova adına sərgi salonunda oxuculara təqdim edilmiş, haqqında qiymətli fikirlər, xoş sözlər söylənilmişdir.**

Leyla xanım əlinə fırça götürdüyü gündən sənətə vurğunluqla, özəl bir yaradıcılıq eşqiylə yazıb-yaratmağa başlamışdır. Hələ tələbə olduğu illərdən onun əsərləri ayrı-ayrı sərgilərdə nümayiş olunmuşdur. Onun ilk fərdi sərgisi 2011-ci ildə İçərişəhərdə yerləşən "Abşeron" rəsm qalereyasında açılmışdı. Çoxsaylı sənət adamlarının iştirakı ilə münayiş olunan bu sərgi "Güllərin simfoniyası" adlanırdı. Bu sərgidə ünvanına deyilən xoş sözlərdən fərəh və qürur hissi keçirirdi. Güllər, çiçəklər onun ən doğma mövzusu, mən deyərdim ki, həyata, dünyaya ən uğurlu baxışı, estetik dünyaduyumudur. Leyla gözəllik aşiqidir. Onun çəkdiyi güllər,çiçəklər gözəl bir şeir misraları kimi boy verir, həzin bir musiqi sədaları kimi qolqanad açır, ürəklərə, könüllərə mənəvi qida verir, yaşamaq yaratmaq enerjisi bəxş edir. Bu cəhətdən o, rəssam olduğu qədər də şairdir, bəstəkardır.

Leyla xanımın bu ikinci "Quba, Nabran mənzərələri"nin Azərbaycan Rəssamlar İttifaqının V.Səmədova adına sərgi salonunda sərgilənməsi tamamilə qanunauyğun bir hadisə idi. Leyla xanım çoxdandır ki, böyük sənət yolundadır, bu sərgi onun yarıməsrlik mənalı ömrünün ən şərəfli imtahanı idi. Leyla xanım bu imtahandan uğurla çıxdı. Ayrı-ayrı sənət adamlarının, xüsusən özündən yaşlı rəssamların maraqlı rəyləri, ayrı-ayrı işlər haqqında qiymətli qeydləri bunu ürəklə söyləməyə imkan verir. Leylanın "Quba", "Nabran", "Qoşa ağac" mənzərələri ölkəmizin şimal bölgəsinin təkrasız gözəlliyinin, məxsusiliyinin bədii ifadəsi kimi çox dəyərlidir. Ömür boyu şəhərdə yaşayan bir qızın kənd, rayon ovqatına köklənməyinin, təbiətin bir parçasına çevrilməyinin ən bariz nümunəsidir bu mənzərələr. Uca dağlar, zümrüd meşələr, göylərə ucalan yaşıl ağaclar rəssam duyğularından, sənətkar müşahidəsindən "keçib" kətanda boy göstərir, rənglərin əsrarəngiz çaları ilə "dilə" gəlir, tamaşaçılarıyla ilıq, isti bir ovqatla "danışır", onun respublikamızın şimal zonasına çağırır, yayın isti günlərində məhz bu yerdə Qubada, Nabranda dincəlməyə, bu yerlərin saf, təmiz havasını udmağa səsləyir. Leyla Mirzəzadə öz yaradıcılığında təkcə rəngkarlıqla kifayətlənməmiş, keramika üzrə də ilhamını sınağa çəkmiş, zərgər zərifliyi ilə əsərlər yaratmışdır. Leylanın qrafik əsərlərində işlətdiyi son dərəcə incə cizgilər



özünəməxsusluğu, fərdi yaradıcılıq özgürlüyü ilə yadda qalır.

Yapon poeziyasına yaxından bələdliyi onun yapon gözəllərinin təsvirində lirik, musiqili auranı dəqiqliklə ifadə etməsinə, gül-çiçəklə əhatələnmiş bu gözəllərin nüfuzedici baxışlarında oxunan mənaların tükənməz duyğular silsiləsinə, həssaslıqla izləməsinə yardımçı olmuşdur.

Leylanın yaradıcılığı yuxarda qeyd etdiyim kimi bir çox sənət adamlarının, o cümlədən də sənətşünasların diqqətini cəlb etmiş, onun haqqında bir çox məqalələr dərc edilmişdir. Bu cəhətdən sənətşünaslıq üzrə fəlsəfə doktoru, görkəmli sənətşünas Ziyadxan Əliyevin yazıları xüsusilə qiymətlidir: mən onun "Günəşli palitra" adlı məqaləsindən aşağıdakı sətirləri örnək gətirmək istəyirəm.

"...Leyla Mirzəzadənin keramik əşyalarla bağlı gördüyü yaradıcılıq işlərində də onun rəngkar duyumunun aparıcı rol oynadığı hiss olunmaqdadır. Müxtəlif vazaların dekorunda müşahidə olunan akvarelsayağı rəng-naxış vəhdətində həm cəlbediciliyin, həm də yüksək zövq daşıyıcılığının mövcudluğundadır ki, bu estetik tutum məcmusu insan duyğularına hakim kəsilən bədii məziyyətlər kimi baxılırlar. Eyni sözləri rəssamın nəbati naxışlı kaşıları haqqında da demək olar. Bu çoxsaylı kaşıların zahirən bir qədər də xaotik görünən bədii həllində əslində, rənglərin ahəngdarlığı ilə əldə olunan bütövlük duyulmaqdadır. Bunun isə müəllifin səthlərə özünəməxsusluq bəxş etmək gücündə olan sənətkarlığından qaynaqlanması birmənalıdır..."

**Sözümün sonunda Leyla Mirzəzadənin bu sərgisi - dəyərli sənət uğuru münasibəti ilə ürəkdən təbrik edir, ona yeni-yeni yaradıcılıq uğurları arzulayıram.**

**Musa Ələkbərli**